UOT:930.85

GÜNEL HÜSEYNOVA
T.ü.f.d.,
Gəncə Dövlət Universiteti Sosial fənlər kafedrasının baş müəllimi
Orcid 0000000179769434
TarixVeOnunProblemleri@gmail.com

ORTAQ TÜRK ƏLİFBASINA KEÇİDİN TARİXİ ARXAPLANI: AZƏRBAYCANIN TİMSALINDA

DOI: https://doi.org/10.36719/2708-065X/110/121-127

Ortaq türk əlifbası uzun müddətdir türk dünyasında dil birliyi və mədəni inteqrasiyanın mühüm vasitəsi kimi tanınır. XIX əsrin ikinci yarısından başlayaraq bir sıra elm adamları və siyasətçilər türk xalqlarının ortaq əlifbadan istifadə etməsinin zəruriliyini vurğulamış, bu istiqamətdə bir sıra addımlar atmışlar. Xüsusilə, Azərbaycanda və Osmanlı dövlətində bir sıra mütəfəkkirlər əlifba islahatları, latın əlifbasına keçid və ortaq Türk əlifbasının yaradılması sahəsində müxtəlif fikirlər irəli sürmüş, siyasi xadimlərlə görüşlər keçirmiş və ideyalarını izah etmişlər. Bu məqalədə ortaq türk əlifbasına keçid təşəbbüslərinin tarixi konteksti, həmçinin Azərbaycan və Türkiyənin bu sahədəki təcrübələri təhlil edilir. Məqalənin məqsədi ortaq türk əlifbası ideyasının formalaşması, tətbiqi imkanları və qarşılaşdığı çətinlikləri Azərbaycan və Türkiyənin təcrübəsində dəyərləndirmək, Türk dünyasının mədəni və dil birliyinin gücləndirilməsi baxımından bu təşəbbüsün əhəmiyyətini ortaya qoymaqdır.

Məqalədə tarixi metod, müqayisəli təhlil metodu, sənədlərlə iş, analogiya, induksiya kimi bir sıra tədqiqat metodlarından istifadə edilmişdir. Məqalənin yazılmasında mövzuya dair tarixi sənədlərdən, elmi əsərlərdən, rəsmi sənədlərdən, elektron resurslardan istifadə edilmişdir.

Məqalənin başlıca elmi yeniliyi ondan ibarətdir ki, ortaq türk əlifbasına keçilməsi istiqamətində son dövrlərdə artan səylərin və onun nəticə olaraq hazırlanan yeni ortaq türk əlifbasının tarixi arxaplanı Azərbaycan və Türkiyə nümunəsində tədqiq edilmişdir.

Məqalənin başlıca nəticəsi odur ki, Azərbaycan və Türkiyə ortaq türk əlifbası ideyasının formalaşmasında və tətbiqində həmişə aparıcı mövqedədir. Tarixi təcrübə göstərir ki, əlifba islahatları təkcə texniki deyil, həm də ideoloji, siyasi və mədəni hadisədir. Ortaq əlifba ideyasının gerçəkləşməsi üçün elmi, texnoloji və siyasi koordinasiya vacibdir. Bu istiqamətdə atılan addımlar türk dünyasında inteqrasiyanın güclənməsinə və mədəni əlaqələrin möhkəmlənməsinə xidmət edə bilər.

Açar sözlər: ortaq türk əlifbası, əlifba islahatı, latın qrafikası, türk dünyası, dil siyasəti.

Giriş. Türk xalqları arasında ortaq dil və əlifba məsələsi uzun illərdir elmi və siyasi diskussiyaların mövzusudur. XIX əsrin ikinci yarısından başlayaraq türk xalqları arasında inteqrasiya ideyası, mədəni birlik və ortaq identiklik yaratmaq məqsədi ilə vahid əlifba məsələsi yavaş-yavaş gündəmə gəlmişdir. Bu prosesin əsas aparıcı qüvvələri sırasında Türkiyə və Azərbaycan mütəfəkkirləri xüsusi yer tutur.

Türk dilləri dünyada geniş coğrafiyada yayılsa da, tarixi proseslər nəticəsində bu dillərin yazı sistemləri müxtəlif formalarda inkişaf etmişdir. XX əsrin əvvəllərindən başlayaraq ortaq türk mədəniyyətinin və dilinin bərpası ideyası, ortaq əlifbaya keçid məsələsini də gündəmə gətirdi. Bu məqalədə ortaq türk əlifbasına keçid təşəbbüslərinin tarixi arxa planı, əsas səbəbləri, həyata keçirilmiş addımlar və qarşılaşılan çətinliklər araşdırılır.

Ortaq əlifba ideyasının formalaşması. Türk xalqları uzun tarixləri ərzində bir çox yazı sistemindən istifadə etmişlər. Göytürk (Orxon-Yenisey) əlifbası, Uyğur əlifbası, Ərəb əlifbası, Kiril əlifbası və Latın əlifbası müxtəlif dövrlərdə və bölgələrdə tətbiq olunmuşdur. Bu əlifba müxtəlifliyi yalnız yazı texnikasına deyil, həm də mədəni və siyasi asılılığa işarə edirdi.

Osmanlı imperiyasında və onun təsir dairəsində olan türkdilli xalqlar uzun müddət ərəb qrafikasından istifadə etmişdir.

Sovet dövründə Orta Asiya və Sibir bölgəsindəki türk xalqları Kiril əlifbasına keçməyə məcbur edilmişdi.

Azərbaycan, Türkiyə və Balkanlardakı türk xalqları isə XX əsrin əvvəllərindən etibarən latın qrafikasına üstünlük verməyə başlamışdılar.

Ortaq türk əlifbasına keçid ideyası ilk dəfə XX əsrin əvvəllərində pan-türkist düşüncə tərzi ilə əlaqədar olaraq irəli sürülmüşdü. Məqsəd, türk xalqları arasında ünsiyyəti asanlaşdırmaq və mədəni inteqrasiyanı gücləndirmək idi.

1926-cı ildə Bakıda keçirilən I Türkologiya Qurultayı bu baxımdan mühüm mərhələ hesab olunur. Qurultayda iştirak edən alimlər və ziyalılar, türk dilləri üçün ortaq bir latın qrafikalı əlifbanın hazırlanması ideyasını irəli sürdülər. Bu qurultaydan sonra bir sıra türk respublikalarında latın əlifbasına keçid prosesi başlamışdır [7, s.7-8].

1930-cu illərdə SSRİ rəhbərliyi türkdilli respublikaların latın əlifbasına keçidinə icazə versə də, bu siyasət qısa müddət sonra dəyişdi. 1940-cı illərdən etibarən demək olar ki, bütün Orta Asiya və Volqa bölgəsi türk xalqları Kiril əlifbasına keçməyə məcbur edildilər. Bu dəyişiklik:

- Ortaq türk mədəniyyətinin qarşısını almağa yönəlmişdi.
- Türk xalqları arasında informasiya əlaqəsini çətinləşdirirdi.
- Yeni nəsillərin əvvəlki yazılı irslə tanış olmasını əngəlləyirdi.

Sovet İttifaqının süqutundan sonra türkdilli respublikalar müstəqillik qazandıqdan sonra ortaq türk əlifbasına keçid ideyası yenidən aktuallaşdı. 1991-ci ildə Bakıda keçirilən "Türk Dili Qurultayı"nda bu mövzu ilk dəfə ciddi şəkildə müzakirə edildi.

Türkiyə modelinə yaxınlaşdırılmış latın qrafikalı ortaq əlifba hazırlanmağa başlandı. 1990-cı illərin əvvəllərində Türk Akademiyası və TÜRKSOY bu istiqamətdə araşdırmalar apardı. Lakin praktiki tətbiq sahəsində ciddi irəliləyiş əldə olunmadı.

1990-cı illərdən etibarən Azərbaycan, Türkmənistan və Özbəkistan latın qrafikasına keçid prosesinə başladılar. Qazaxıstan bu prosesə nisbətən gec qoşulsa da, 2017-ci ildən etibarən rəsmi şəkildə latın qrafikasına keçid qərarı qəbul etmişdir.

Bu keçid təkcə texniki deyil, eyni zamanda siyasi və mədəni əhəmiyyətə malikdir:

- Türk dövlətləri arasında informasiya, təhsil və media sahəsində inteqrasiya güclənir.
- Müasir texnologiyaya uyğunlaşma daha da asanlaşır.
- Tarixi və ortaq mədəniyyətin bərpası üçün şərait yaranır.

Hazırda ortaq türk əlifbası ideyası Türk Dövlətləri Təşkilatı çərçivəsində yenidən gündəmdədir. Lakin bir sıra problemlər bu prosesi ləngidir:

- Hər bir ölkənin öz dil xüsusiyyətlərinə uyğun əlifba variantı seçməsi.
- Əhalinin yeni qrafikaya öyrəşməsi üçün uzun müddət və resurs tələb olunması.
- Təhsil, çap və rəqəmsal texnologiyaların uyğunlaşdırılması ehtiyacı.

Bununla belə, 2021-ci ildə Türk Dövlətləri Təşkilatının qəbul etdiyi qərarlarda ortaq əlifba məsələsinə dair koordinasiyalı işlərin görülməsi razılaşdırılmışdır. Bu isə imkan vermişdir ki, ortaq əlifbaya keçid prosesi sürətləndirilsin və 34 hərfdən ibarət əlifba qəbul edilsin.

Türk dövlətlərindən əlifba islahatlarının başlanğıcı. *Türkiyə təcrübəsi.* 1928-ci ildə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə həyata keçirilən əlifba islahatı nəticəsində Türkiyədə ərəb qrafikasından latın əsaslı yeni türk əlifbasına keçildi. Həmin il, Atatürkün latın əlifbasına keçilməsi üçün təşkil edilən dil komissiyasının gördüyü işlərlə yaxından maraqlanması və "bu ya üç ayda olur, ya da heç vaxt olmaz" deyərək bu keçidin qısa müddət ərzində tamamlanmasında nə qədər maraqlı olduğunu göstərir [3, s.167]. Bu islahat yalnız texniki deyil, həm də ideoloji və mədəni bir dönüş nöqtəsi idi. Məqsəd yazılı kommunikasiya vasitələrini sadələşdirmək və Qərblə inteqrasiyanı asanlaşdırmaq idi. 29 hərfli yeni Türk əlifbasının əsas xüsusiyyətləri bunlar idi:

- Sadə və fonetik uyğunluğa əsaslanan əlifbadır;
- Cidd, fonetik və ortoqrafik sabitlik qorunur;
- Keçid sürətlə və dövlət təzyiqi ilə həyata keçirilsə də uğurlu sayılabiləcək nəticələr verdi;
- Digər türk dövlətlərinə model kimi təqdim edilmişdir.

Özbəkistan təcrübəsi. Özbək dilinin latın əlifbası ilə yazılması fikri ilk dəfə 1921-ci ildə Daşkənddə təşkil olunan Dil və İmla Qurultayında irəli sürülmüşdü. Burada özbək şairi Batu latın əsaslı

özbək əlifbası ilə əlaqədar konfransa məruzə təqdim etmişdi. Ancaq onun bu məruzəsi qəbul edilməmişdi. Çünki konfransda iştirak edənlərin əksəriyyəti əlifba dəyişikliyini yox, mövcud ərəb əlifbasının islah edilməsini dəstəkləyirdi [8, s. 208]. Bu tarixdən etibarən isə məsələ bir neçə də gündəliyə gəlir. Belə ki, 1926, 1929, 1934 və 1965-ci illərdə latın qrafikası əsasında özbək əlifbasının qəbul edilməsi müzakirə edilir və bir sıra layihələr irəli sürülür. 1991-ci ildən etibarən kiril əsaslı özbək əlifbasının dəyişdirilməsi üçün bir sıra layihələr gündəliyə çıxarılmış və bu sahədə müzakirələr təşkil edilmişdir.

1993-cü ildə latın qrafikasına keçidlə bağlı qərar qəbul edildi. Əvvəlcə, 34 hərfli ortaq əlifbaya uyğun olan özbək əlifbası, 1995-ci ildə sadələşdirildi və 26 hərfə endirildi. Bu əlifbanın əsas xüsusiyyətləri aşağıdakılardır:

- "ç", "ş" kimi hərflər cütlüklərlə (sh, ch) əvəzləndi;
- "q", "o‘", "g‘" kimi hərflər dilin öz fonetikasına uyğunlaşdırıldı;
- Rəsmi sənədlərdə və mediada qarışıqlıq (latın–kiril paralelliyi);
- Cəmiyyətin böyük hissəsi hələ də kiril qrafikasından istifadə edir.

Tədqiqatçı Timur Qocaoğlu qeyd edir ki, "1993-cü ildə qəbul edilmiş latın əlifbasına əsaslanan yeni özbək əlifbası üzərində 1995-ci ildə həyata keçirilən islah çalışması bu əlifbanı ortaq türk-latın əlifbasından həm uzaqlaşdırdı, həm də əlifbanı mürəkkəb və istifadəyə yararsız vəziyyətə saldı" [15, s. 597].

2021-ci ildən yeni latın sisteminə keçid sürətləndi, tam keçid üçün 2030-cu ilə qədər vaxt müəyyənləşdirildi.

Türkmənistan təcrübəsi. Türkmən dili, XX əsrin əvvəllərində ərəb əlifbası ilə yazılmışdır. 1928-1940-cı illərdə ölkədə latın qrafikalı əlifbadan istifadə edilmişdir. 1940-cı illərdən başlayaraq isə Moskvanın təzyiqi ilə kiril əlifbasına keçilmişdir. Türkmənistan 1991-ci ildə yenidən müstəqilliyini əldə etdikdən sonra yenidən latın qrafikasına əsaslanan əlifbadan istifadə etməyə başlamışdır [16]. Türkmənistan Respublikası müstəqilliyin ilk illərindən başlayaraq bir sıra işlər görüldü, ən əsası 1993-cü ildə latın qrafikasına keçid elan edildi. Bu doğrultuda spesifik simvollarla fərqli bir latın qrafikası hazırlandı (məs., ä, ž, š).

Keçid prosesinin əsas xüsusiyyətləri bundan ibarətdir [6, s. 12-13]:

- Qərar daha çox fonetik uyğunluğa deyil, milli fərqliliyə yönəlik idi.
- 1995-ci ildə bir daha dəyişiklik edilərək, daha fərqli simvollardan istifadə olundu.
- Müxtəlif dəyişikliklər oxu və yazıda uyğunsuzluq yaratdı.
- Beynəlxalq uyğunluq zəif qaldı.

Hal-hazırda Türkmənistanda dövlət səviyyəsində latın əlifbası tətbiq olunur, lakin ortaq əlifbaya tam uyğun deyil.

Qazaxıstan təcrübəsi. 2017-ci ildə prezident Nursultan Nazarbayev latın əlifbasına keçidi elan etdi. Yeni əlifbaya keçid prosesinin əsas xüsusiyyətləri aşağıdakılardır [13, s. 200-201]:

- 2018-ci ildə apostrof əsaslı əlifba versiyası təqdim olundu, lakin tənqid edildi;
- 2021-ci ildə diaqraf əsaslı yeni versiya təsdiqləndi: ö, ü, ş, ç kimi hərflər daxil edildi;
- Son versiya ortaq türk əlifbasına daha yaxınlaşdırıldı;
- "ə" hərfi kimi bəzi fərqli səslər qorunur.
- Cəmiyyətin alışması üçün mərhələli keçid planlaşdırıldı;
- Təhsil və media sektorunun uyğunlaşdırılması vaxt tələb edir.

2023-cü ildən başlayaraq rəsmi sənədlərdə tətbiqə başlanıldı, tam keçid üçün 2025–2030-cu illər planlaşdırılır [10].

Qırğızıstan təcrübəsi. Qırğızıstanda dil və əlifba məsələləri son yüz ildə son dərəcə mürəkkəb mərhələlərdən keçmişdir. Belə ki, əvvəlcə ərəb qrafikalı qırğız əlifbası (1924-1927), sonra latın qrafikalı qırğız əlifbasına keçilmiş (1928), bu əlifbada 1929-cu ildə bəzi ilsahatlar aparılmış, və 1940-cı ilə qədər istifadə edilmiş, 1940-cı ildən etibarən isə yenidən kiril əlifbasına keçilmişdir [5, s. 127].

2022-ci ildə Türk Dövlətləri Təşkilatının təşəbbüsü ilə keçid planlaşdırıldı. Hal-hazırda ortaq əlifba layihəsinə uyğunlatdırılmış latın qrafikası üzərində müzakirələr gedir. Ancaq ölkə rəhbərliyi qırğız dilinin inkişafının kiril qrafikası üzərindən həyata keçirilməsinə üstünlük verir [11]. Bunun səbəbi aşağıdakılardır:

- "ç", "ş", "ü" kimi səslərin təmsili üçün uyğun hərflər axtarılır;
- "c", "q", "ñ" kimi fonetik səslərin daxil edilməsi gözlənilir;

- Rusiya ilə əlaqələr səbəbindən Kiril əlifbasından uzaqlaşma ehtiyatla həyata keçirilir;
- Cəmiyyət daxilində kirilə bağlılıq hələ də güclüdür.

Bu gün ölkədə hələ latin qrafikasına keçid üçün rəsmi keçid qərarı qəbul edilməyib, layihə üzərində iş davam edir.

Azərbaycanda əlifba islahatları və ortaq türk əlifbasına keçid üçün əhəmiyyəti. XIX əsrin ortalarından başlayaraq Avropanın və Rusiyanın elmi-mədəni təsirinə məruz qalan Azərbaycan ziyalılarının bir qismi ərəb əlifbasının xalqın savadına, dilin inkişafına ciddi maneə olduğu qənaətinə gələrək, bu vəziyyətdən çıxış yolu kimi əvvəlcə düşüncə, sonra isə praktiki olaraq ərəb dilində islahatla bağlı addımlar atmağa başladılar.

Bu prosesin təşəbbüskarı Şərqdə komediya janrının banisi, tanınmış Azərbaycan yazıçısı Mirzə Fətəli Axundov (1812-1878) olmuşdur. Əslində, Azərbaycan ziyalıları ərəb əlifbasının öyrənilməsinin nöqsanları və çətinliyi haqqında ardıcıl olaraq müxtəlif fikirlər irəli sürmüşlər [4]. Lakin bu cür baxışlar əlifbanın yaradılması mərhələsinə yalnız XIX əsrin ikinci yarısında çatmışdır. Bu dövrdə Mirzə Fətəli Axundov əvvəlcə ərəb əlifbasının islahatı üzərində işləmiş, sonra bu ideyadan tamamilə imtina edərək latın əlifbası əsasında yeni Azərbaycan əlifbasının layihəsini hazırlamışdır. Onun yaradıcılığı bütün Osmanlı imperiyasında, eləcə də Çar Rusiyası və İranda rezonans doğurmuşdur [12, s. 7].

1870-ci ildə Axundov ərəb əlifbasının latın əlifbasına keçirilməsi ilə bağlı ilk layihəsini hazırlayıb, bu mövzu ilə ciddi maraqlanan gənc Məhəmməd ağa Şahtaxtıya göndərir. Daha sonra Axundov layihəsində bəzi məktubların formalarını dəyişdirərək 1873-cü ildə öz layihəsini yekunlaşdırdı.Bəzi mənbələrdə bu layihənin əlyazmasının vaxtilə Əbdürrəhim bəy Haqverdiyevə aid olduğu iddia edilsə də, təəssüf ki, bu tarixi sənədə Əbdürrəhim bəy Haqverdiyevin şəxsi arxivində, Axundovun şəxsi arxivində və ya başqa sənədlərdə rast gəlinməmişdir [9, s. 15].

1870-ci illərdə Axundovun ağlında iki fərqli əlifba layihəsi var idi. 18 iyun 1873-cü ildə Osmanlı İmperiyasının Tiflisdəki ikinci konsulu Ömər Səbrinin vasitəsi ilə İstanbulda çıxan "Hakayık" qəzetinin redaktoruna göndərdiyi məktubda o, yazırdı: "İki növ əlifba haqqında düşündüm. Onlardan biri soldan sağa yazılacaq latın əlifbasının hərflərindən ibarət idi. İkincisi ərəb əlifbasına əsaslanırdı, o zaman indi olduğu kimi sağdan sola yazılacaqdı" [2, s. 153].

1870-ci illər ərzində Axundov ərəb əlifbasının islahatı ideyasından tamamilə uzaqlaşdı və latın əlifbasına keçid fikrini yeganə layihə kimi təklif etdi. O, bu fikri belə izah edirdi: "Soldan sağa yazılan və oxunan, söz içərisində bütün sait və samitlərin daxil edildiyi, bütün nöqtələrin buraxıldığı əlifbadan başqa heç bir əlifbanı qəbul etmirəm və heç vaxt da qəbul etməyəcəyəm" [14, s.184-185]. Uzunmüddətli səylərinə baxmayaraq, M.F.Axundov ərəb əlifbasını latın əlifbası ilə əvəz edə, hətta islahat apara bilmədi.

Nə üçün bu qədər islahatçılara, bu qədər fikirlərə rəğmən heç bir ölkədə - Türkiyədə, İranda, Rusiyada deyil, heç bir dövlət məmuru bu məsələyə müsbət yanaşmadı? Düzdür, dövr ərzində bəzi şəxslər bu təkliflərə müsbət və ya mənfi reaksiya verdilər. Bəzən bu və ya digər islahat təklifini dəstəkləyən geniş ictimai rəy yarandı və məsələ uzun müddət mətbuatda müzakirə mövzusu olaraq qaldı. Lakin son nəticədə heç bir əməli addım atılmadı, hər şey sadəcə arxivləşdirilirdi. Bu cür sosial problemlərin həlli digər təbəqələrin də iştirakını tələb etdiyi üçün ciddi ictimai dəstək olmalıydı. Türkiyədə bu təbəqələr xəlifə olan sultanların hökuməti idi. İranda özünü "Zillillah" (Allahın kölgəsi) hesab edən şahların hökuməti. Rusiyada isə Çarların despotik hökumətinin nəzarətində idi. Çoxmilyonlu türk-tatar xalqının mədəni problemlərinin taleyi bu üç hökumətin əlində idi. İslahatçılar yaxşı bilirdilər ki, müvafiq hökumətlərin iştirakı olmadan bu məsələdə irəliləyiş əldə oluna bilməz [9, s. 16-17].

Sonrakı dövrlərdə əlifba islahatı ilə bağlı Məhəmməd ağa Şahtaxtinski 1900-cü illərin əvvəllərində bir neçə əlifba modeli təklif etmiş, 1923-cü ildə yenidən təşkil edilən komitə ilə birlikdə latın-əsaslı əlifba quruluşunda iştirak etmiş və Bakıda 1926-cı ildə keçirilən I Turkoloji Qurultayında öz layihəsini müdafiə etmişdir.

1922-ci ildə Latin əlifbasına keçid üzrə xüsusi komitə yaradılmış (Yeni Türk Əlifbası Komitəsi) və 1923-cü ilin 20 oktyabrında yeni əlifba dövlət əlifbası elan edilmişdir. 1924-cü ildə latın əlifbası tam obligator hesab olunmuş, 1 yanvar 1929-da ərəb əlifbası tamamilə qadağan olunmuşdur.

Stalin 1939-cu ildə SSRİ-dəki bütün türk respublikalarında latın əlifbasını kiril əlifbası ilə əvəz etdirdi. Bu addım Sovet rəhbərliyi tərəfindən rus dilinin və fikir ayrılığının qarşısını almaq məqsədilə atılmışdır.

1991-ci ildə Azərbaycanda kiril əlifbasını ləğv edərək latın qrafikalı yeni əlifbaya keçilməsi qərarı qəbul edildi və bu qərara əsasən 1 avqust 2001-ci ilədək bütün rəsmi nəşrlər, yol nişanları, mətbuat və kitablar latın əlifbasına keçirdi. 25 dekabr 1991-ci ildə qəbul edilən "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikası Qanununa görə [1]:

1. "Azərbaycan əlifbasının latından rus əlifbasına keçirilməsi haqqında" 11 iyul 1939-cu il tarixli Azərbaycan SSR-in Qanunu bu gündən qüvvədən düşmüş hesab edilsin.

2. 1940-cı ilə qədər Azərbaycanda istifadə edilən 32 hərfdən ibarət latın qrafikalı Azərbaycan əlifbası kicik dəyişikliklərlə bərpa olunsun.

1992-ci ildən 32 hərfli Azərbaycan Latın Əlifbası tətbiq olundu. Ərəb və rus əlifbasından tamamilə imtina edildi. Türkiyə əlifbasına yaxın, lakin ə, x, q kimi spesifik hərflərin olduğu yeni əlifba qəbul edildi. Latın əlifbasında yer almayan "ə" hərfi yer aldı, əvvəl ortaq əlifbada ä ilə əvəzlənməsi təklif olunmuşdu. Ədəbi irsin yeni əlifbaya transkripsiyası prosesi uzun çəkdi. Bəzi yaşlı nəsil üçün keçid çətin oldu. Hal-hazırda ölkədə rəsmi və ictimai sahədə yalnız latın qrafikası istifadə olunur.

1991-ci il qanununda qeyd olunduğu kimi, XX əsrin əvvəllərində konsensusla qəbul edilmiş latın əlifbasından fərqli olaraq kiril əlifbası siyasi təzyiq vasitəsi hesab edilir və kiril əlifbasından latın əlifbasına keçid "tarixi ədalətsizliyin" aradan qaldırılmasının ifadəsi kimi təqdim olunur.

Nəticədə, Azərbaycanda əlifba ərəb → latın (1923–1929) → kiril (1939–1991) → 1991 – yenidən latın mərhələlərindən keçərək bu günkü formasını alımışdır.

Azərbaycan dilinin öz tələblərini yerinə yetirmək qabiliyyətinin olmadığını iddia etməkdənsə, əlifba dəyişikliyi siyasi seçimin ifadəsi kimi görünür. Bu seçim Azərbaycanın müstəqillik əldə etdikdən sonrakı dövrdə Qərb və Türkiyə ilə yaxınlaşma və inteqrasiyanı prioritet hesab etməsi, milli kimliyinin müəyyənləşdirilməsi prosesində isə sovet dövründən qalma mirasdan imtina etməsi ilə formalaşdı.

Bu nöqteyi-nəzərdən latın əlifbasına keçid müstəqillik əldə etdikdən sonrakı dövrdə Azərbaycanın beynəlxalq əlaqələrinin formalaşmasında ilk növbədə özünütəyinatının ifadəsi rolunu oynamışdır.

Nəticə. Azərbaycan ortaq türk əlifbası ideyasının formalaşmasında və tətbiqində aparıcı mövqedədir. Tarixi təcrübə göstərir ki, əlifba islahatları təkcə texniki deyil, həm də ideoloji, siyasi və mədəni hadisədir. Ortaq əlifba ideyasının gerçəkləşməsi üçün elmi, texnoloji və siyasi koordinasiya vacibdir. Bu istiqamətdə atılan addımlar türk dünyasında inteqrasiyanın güclənməsinə və mədəni əlaqələrin möhkəmlənməsinə xidmət edə bilər.

Ortaq türk əlifbasına keçid prosesi hər bir ölkənin:

- dil fonetikası;
- siyasi mövqeyi;
- əhalinin psixoloji hazırlığı;
- və geosiyasi vəziyyət

ilə sıx bağlıdır.

Bəzi ölkələr ortaq əlifbaya daha yaxın sistemlər qəbul edərək sinxron inteqrasiyaya çalışsa da, bəziləri hələ də fərqli modellərdən istifadə edir. 2024-cü ildə qəbul edilən 34 hərfli ortaq model bu baxımdan vahid platforma yaratmaq məqsədi daşıyır.

Türkiyə və Azərbaycan əlifba islahatında həm müstəqil addımlar, həm də ortaq təşəbbüslər səviyyəsində öncül rol oynamışdır. Ortaq türk əlifbasının gələcək tətbiqi üçün aşağıdakı faktorlar kritikdir:

- dil-məntiqi uyğunluq;
- dövlət və sosial səviyyədə koordinasiya;
- texnoloji və təhsil-media dəstəyi;
- regional siyasi əməkdaşlıq.

Bu istiqamətlərdə koordinasiyanın güclənməsi türk dünyasında dil və mədəni inteqrasiya prosesini daha da derinləşdirə bilər.

ƏDƏBİYYAT

1. "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" Azərbaycan Respublikasının Qanunu / 1991, 25 dekabr, URL: https://e-qanun.az/framework/6803 [17.09.2025].
2. Axundov, M.F. Eserleri (cilt l) / M.F. Axundov. - Bakı: Şərq-Qərb, - 2005.
3. Atay, F.R. Çankaya / F.R. Atay. - İstanbul: Çolpan, - 2023. - 212 s.

4. Cahangirov, M. Azerbaycan milli ədəbi dilinin təşəkkülü (I cild) / M.Cahangirov, - Bakı: Elm, - 1978.
5. Cumakunova, G. Bağımsızlığının 27. yılında Kırgızistan'da devlet dilinin durumu // Karadeniz Araştırmaları, - 2018. № XV/60, - s.124-134.
6. Dinç, S., Aşirov, T. Türkmen alfabesinin evreleri // Journal of Literature and Humanities, - 2024. № 73, s.8-17.
7. Əzizov, E. I Türkoloji Qurultayda türk dillərinin tarixi və inkişafı məsələləri / Müasir Türkologiya: Dünən, Bu gün və Sabah (problemlər və perspektivlər) mövzusunda BDU-nun təşkil etdiyi elmi konfransın materialları. Bakı, 2016, s.6-10.
8. İbrahimov, E. Bağımsız Türk Cumhuriyetlerinde Dil Politikası (Azerbaycan Örneği) // Türk Dünyası Dil ve Edebiyat Dergisi, - 2020. № 50, - s.99-116.
9. İsaxanlı, İ. Azərbaycanda Latın Əlifbasına keçid. Tarixə qısa bir baxış və Fərhad Ağazadə // Bilgə, - 2005. № 3-4, - s.38-49.
10. Kazakistan'da 2023-2029 döneminde dil politikasının geliştirilmesine ilişkin yeni devlet programı hazırlandı // URL: https://www.trtavaz.com.tr/haber/tur/turkistandan/kazakistan-da-2023-2029-doneminde-dil-politikasinin-gelistirilmesine-iliskin-yen/643e825801a30a218cedd48d [17.09.2025].
11. Qırğızıstandan geriyə addım: "Dilin inkişafı kiril əlifbasında davam etdirilməlidir" / - 2023. 21 aprel, URL: https://musavat.com/news/qirgizistandan-geriye-addim-dilin-inkisafi-kiril-elifbasinda-davam-etdirilmelidir_972128.html [17.09.2025].
12. Məmmədov, N. Mirzə Fətəli Axundov / N. Məmmədov. - Bakı: Yazıçı, - 1982. – 271 s.
13. Otyzbay, Z. Political linguistics problems and transition from Cyrillic to Latin alphabet in Kazakhstan // The Journal of International Social Research, 2019. № 12/62, s. 196-206.
14. Rüstəmli, N. M. F. Axundzadənin ərəb əlifbasının islahıyla bağlı yeni əlifba layihəsi // Din Elmləri Akademik Araşdırma, - 2016. №16/3, - s. 184-185.
15. Tekin, F. Özbek türkçesinin latin alfabesi esasındaki imlası üzerine // Turkish Studies International Periodical for the Languages, Literature and History of Turkish or Turkic, - 2008: № 3/6, - s. 588-600.
16. Türkmence (Türkmen dili / Түркмен дили). https://www.omniglot.com/writing/turkmen.htm [17.09.2025].

ГЮНЕЛЬ ГУСЕЙНОВА
доктор философии по техническим наукам, старший преподаватель
Гянджинский государственный университет, кафедра Социальных наук

ИСТОРИЧЕСКИЕ ПРЕДПОСЫЛКИ ПЕРЕХОДА НА ОБЩЕТУРЕЦКИЙ АЛФАВИТ: НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНА

Единый тюркский алфавит издавна признаётся важным средством языкового единства и культурной интеграции в тюркском мире. Начиная со второй половины XIX века, ряд учёных и политиков подчёркивали необходимость использования тюркскими народами единого алфавита и предпринимали шаги в этом направлении. В частности, ряд мыслителей в Азербайджане и Османской империи выдвигали различные идеи в области реформы алфавита, перехода на латиницу и создания единого тюркского алфавита, проводили встречи с политическими деятелями и разъясняли свои идеи. В данной статье анализируется исторический контекст инициатив по переходу на единый тюркский алфавит, а также опыт Азербайджана и Турции в этой области. Цель статьи – оценить формирование идеи единого тюркского алфавита, возможности его применения и трудности, с которыми он столкнулся в опыте Азербайджана и Турции, а также раскрыть значение этой инициативы с точки зрения укрепления культурного и языкового единства тюркского мира. В статье использован ряд методов исследования, таких как исторический метод, метод сравнительного анализа, метод работы с документами, метод аналогии и метод индукции. Статья написана с использованием исторических документов, научных трудов, официальных документов и электронных ресурсов по теме.

Главная научная новизна статьи заключается в том, что на примере Азербайджана и Турции изучен исторический контекст недавних попыток перехода к единому тюркскому алфавиту и подготовленного в результате этого нового единого тюркского алфавита.

Главный вывод статьи заключается в том, что Азербайджан и Турция всегда занимали лидирующие позиции в формировании и реализации идеи единого тюркского алфавита. Исторический опыт показывает, что реформы алфавита – это не только технические, но и идеологические, политические и культурные события. Научно-техническая и политическая координация необходима для реализации идеи единого алфавита. Шаги в этом направлении могут способствовать укреплению интеграции и культурных связей в тюркском мире.

Ключевые слова: единый тюркский алфавит, реформа алфавита, латинская письменность, тюркский мир, языковая политика.

GUNEL HUSEYNOVA
Doctor of Philosophy in Technical Sciences Senior Lecturer
Ganja State University Department of Social Sciences

HISTORICAL BACKGROUND OF THE TRANSITION TO THE COMMON TURKIC ALPHABET: IN THE EXAMPLE OF AZERBAIJAN

The common Turkic alphabet has long been recognized as an important means of linguistic unity and cultural integration in the Turkic world. Starting from the second half of the 19th century, a number of scientists and politicians emphasized the necessity of the Turkic peoples using a common alphabet and took a number of steps in this direction. In particular, a number of thinkers in Azerbaijan and the Ottoman Empire put forward various ideas in the field of alphabet reforms, transition to the Latin alphabet and the creation of a common Turkic alphabet, held meetings with political figures and explained their ideas. This article analyzes the historical context of the initiatives to transition to a common Turkic alphabet, as well as the experiences of Azerbaijan and Turkey in this field. The aim of the article is to evaluate the formation of the idea of a common Turkic alphabet, its application possibilities and the difficulties it encountered in the experience of Azerbaijan and Turkey, and to reveal the importance of this initiative in terms of strengthening the cultural and linguistic unity of the Turkic world.

The article uses a number of research methods such as the historical method, the method of comparative analysis, work with documents, analogy, and induction. The article was written using historical documents, scientific works, official documents, and electronic resources on the subject.

The main scientific innovation of the article is that the historical background of the recent efforts to transition to a common Turkic alphabet and the new common Turkic alphabet prepared as a result of it was studied on the example of Azerbaijan and Turkey.

The main conclusion of the article is that Azerbaijan and Turkey have always been in a leading position in the formation and implementation of the idea of a common Turkic alphabet. Historical experience shows that alphabet reforms are not only technical, but also ideological, political, and cultural events. Scientific, technological, and political coordination are essential for the realization of the idea of a common alphabet. Steps taken in this direction can serve to strengthen integration and strengthen cultural ties in the Turkic world.

Keywords: common Turkic alphabet, alphabet reform, Latin script, Turkic world, language policy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 sentyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Asim Məmmədov, t.e.d. Qabil Əliyev.